# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## *2014-cü ildə Qəbələnin sosial-iqtisadi inkişafının yekunlarına dair geniş iclas keçirilmişdir*

Heydər Əliyev Konqress Mərkəzində 4 fevralda Qəbələ rayon icra hakimiyyətinin geniş iclası olmuşdur.

Yığıncağa rayonun idarə, müəssisə rəhbərləri, qəsəbə və kənd inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri, sahibkarlar və ziyalıların nümayəndələri dəvət olunmuşdu.












İclasda respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Əflatun Rufiyev iştirak edirdilər.

Tədbirdən öncə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, qonaqlar, rayon fəallarının bir qrupu ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər. Sonra iştirakçılar mərkəzin foyesində təşkil ounmuş rayonda istehsal olunan yerli sənaye və kənd təsərrüfatı məhsullarından ibarət sərgi ilə tanış olmuşlar.

Hesabat yığıncağını giriş sözu ilə rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev açmışdır. Natiq qeyd etmişdir ki, rayon icra hakimiyyətində ənənəvi olaraq hər il rayonda görülmüş işlərə yekun vurulur və rayon ictimaiyyəti qarşısında hesabat verilir.

Sonra cənab başçı 2014-cü ildə Qəbələnin sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat məruzəsi etmişdir. Hesabat məruzəsi «Qəbələ» qəzetinin 4 fevral 2015-ci il tarixli sayında dərc olunmuş və iclas başlamazdan əvvəl iştirakçılara təqdim edilmişdir.

Məruzə ətrafında 10 saylı Ərazi Vergilər İdarəsinin rəisi Şahismayıl Bayramov, Çuxur Qəbələ bələdiyyəsinin sədri Arzu İsrəfilova, Aqrokompleks Qəbələ MMC-də təsərrüfat rəhbəri Kamal Əfəndiyev, ictimai-fəal gənc Səadət Səmədzadə çıxış edərək görülən işlər barədə danışmış və cənab Prezidentin respublikanın sosial-iqtisadi inkişafı və xarici siyasət sahəsində fəaliyyətini dəstəklədiklərini bildirmişlər.

Daha sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Əflatun Rufiyev, respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov çıxış edərək cənab Prezidentin rəhbərliyi ilə respublikamızda aparılan islahatlardan, həyata keçirilən möhtəşəm layihələrdən, əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı görülən tədbirlərdən və gələcək illərdə qarşıda duran vəzifələrdən danışmışlar (çıxışlar ixtisarla qəzetdə dərc olunur).

Yığıncaqda müvafiq qərar qəbul olunmuşdur. İclasın iştirakçıları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul etmişlər. Müraciət qəzetimizdə dərc olunur.

Ötən il rayonun sosial-iqtisadi inkişafında fərqlənən bir qrup fəal rayon icra hakimiyyəti tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə təltif edilmişlər.

İclası rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

## Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda Qəbələ rayon ictimaiyyəti nümayəndələrinin

# MÜRACİƏTİ

**Möhtərəm cənab Prezident!**

Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı dərin məzmunlu nitqinizdə ötən ildə əldə edilən uğurlar hərtərəfli təhlil edilmiş, 2015-ci ildə qarşıda duran vəzifələr geniş şərh olunmuşdur.

Azərbaycanın sürətli inkişafı ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən inkişaf xəttinin Sizin tərəfinizdən davam etdirilməsinin parlaq nəticəsidir. Sizin qeyd etdiyiniz kimi 2014-cü il ölkəmizin sosial-iqtisadi həyatında böyük uğurlar ili kimi yadda qaldı.

Azərbaycanın beynəlxalq nüfuzu daha da artmış, dinamik inkişafı təmin olunmuş, nəzərdə tutulan bütün layihələr icra edilmişdir. Əlbəttə, bu nailiyyətlərin təməlində uzun illər aparılan düşünülmüş siyasət və iqtisadi islahatlar dayanır. İqtisadiyyatımızın yüksəlişi, əhalinin sosial müdafiəsinin yüksək səviyyədə təşkili, regional inkişaf proqramının davamlı icrası hər birimizdə böyük qürur hissi doğurur.

Yorulmaz fəaliyyətiniz nəticəsində əldə edilən nailiyyətlərə görə Azərbaycan dünyanın inkişaf edən ölkələri sırasındadır.

**Möhtərəm cənab Prezident!**

Uğurla həyata keçirilən sosial-iqtisadi proqramlar ölkəmizin müstəqil siyasətinin davamlı inkişafına, Azərbaycan xalqının milli maraqlarının müdafiəsinə yönəlmişdir. Ümidvarıq ki, Sizin gərgin əməyiniz nəticəsində 2015-ci ildə də ölkəmiz daha sürətlə inkişaf edəcək, Azərbaycan iqtisadi cəhətdən dünyanın lider dövləti olacaqdır. 2014-cü ilin yekunları bir daha göstərir ki, ölkəmizin gələcəyinə hesablanmış müdrik siyasətiniz Azərbaycan dövlətini, onun müstəqilliyini daha da möhkəmləndirir.

Sizin rəhbərliyinizlə həyata keçirilən hərtərəfli islahatların dinamik inkişafı, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi və Azərbaycanın dünya iqtisadiyyatında mühüm yer tutması, Qəbələ rayonunun ictimaiyyəti tərəfindən də böyük razılıq hissi ilə qarşılanır. Əminik ki, 2015-ci ildə nailiyyətlərimiz daha da artacaq, ölkəmiz beynəlxalq müstəvidə öz mövqelərini daha da möhkəmləndirəcəkdir.

**Möhtərəm cənab Prezident!**

Sizə müstəqil Azərbaycanımızın inkişafı və xalqımızın daha işıqlı gələcəyi naminə gərgin və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar, uzun ömür, möhkəm cansağlığı arzu edirik.

**Tanrı Sizi qorusun!**

***(Müraciət Qəbələ rayon ictimaiyyətinin nümayəndələri tərəfindən 4 fevral 2015-ci il tarixdə 2014-cü ilin yekunlarına həsr edilmiş iclasda qəbul edilmişdir).***